Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası




# Azərbaycanın Milli Mətbəx paytaxtı
# Qax

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

# Azərbaycanın Milli Mətbəx paytaxtı
# Qax

**Respublika Uşaq kitabxanaları üçün tövsiyə biblioqrafiyası**

**Bakı-2016**

**Tərtibçi:** **Nazilə Tahirova**
*Əməkdar mədəniyyət işçisi*

**Redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Azərbaycan Milli Mətbəx Paytaxtı Qax:** tövsiyə biblioqrafiyası /tərt. ed. N. Tahirova; red. və bur. məs. Ş. Qəmbərova; F. Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2016.- 30 s.

**©F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2016**

# Tərtibçidən

Mədəniyyət və Turizm Nazirliyinin təsdiq etdiyi "Xalq yaradıcılığı paytaxtları" proqramına əsasən, Qax şəhərinin 2015-ci il üçün "Azərbaycanın Milli Mətbəx Paytaxtı" elan edilməsi milli mənəvi dəyərlərimizə, rayonun milli mətbəxinə verilən yüksək qiymətdir. "Paytaxt ili" çərçivəsində ilboyu davam edən tədbirlər rayonun milli mətbəx nümunələrinin üzə çıxarılması ilə yanaşı, Qaxın zəngin turizm potensialının təbliği və tanıdılmasında da mühüm rol oynayır..

Xalqımızın malik olduğu maddi və qeyri-maddi mədəni irsin qorunması və təbliği işi ölkəmizdə həyata keçirilən mədəniyyət siyasətinin mühüm tərkib hissələrindən biridir. Nazirlik tərəfindən reallaşdırılan "Xalq yaradıcılığı paytaxtları" proqramı da məhz Azərbaycanın qeyri-maddi mədəni irsinin qorunması, təbliği, "paytaxt" seçilən şəhərlərin turizm potensialının genişləndirilməsi, tanıdılması məqsədi daşıyır.

Əsrarəngiz təbiəti, qədim tarixi abidələri ilə məşhur olan Qax, həm də zəngin mətbəxi ilə seçilir. Tolerantlığın qorunub saxlandığı bu diyarda bir çox millətlərin nümayəndələri yaşayır. Bu millətlərin hər birinin özünəməxsus adət-ənənələri və milli mətbəxi vardır. Bundan əlavə, rayonda müxtəlif səviyyəli tədbirlərin, festivalların keçirilməsi üçün çox yaxşı infrastruktur mövcuddur. Rayon ərazisində müasir tələblərə cavab verən turizm obyektləri, istirahət mərkəzləri fəaliyyət göstərir. Şübhəsiz ki, bütün bu amillər Qaxın "Paytaxt şəhər" elan edilməsində əsas rol oynayır.

Bütün bunları nəzərə alaraq Firidun bəy Köçərli adına Respublika Uşaq kitabxanasının Ölkəşünaslıq və milli ədəbiyyat şöbəsi "Azərbaycan Milli Mətbəx Paytaxtı Qax" adlı tövsiyə biblioqrafiyası hazırlamışdır.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulan göstərici tövsiyə olunan ədəbiyyatdan ibarətdir. Girişdə mövzu haqqında ətraflı məlumat verilmişdir.

Tövsiyə göstəricisində kitablarda, məcmuə və dövri mətbuat səhifələrində dərc edilmiş materiallar Azərbaycan və rus dillərində öz əksini tapmışdır. Vəsaitdə ədəbiyyat xronoloji prinsip əsasında, daxildə isə əlifba sırasına uyğun olaraq qruplaşdırılmışdır.

Ünvan: Bakı şəh., S.Vurğun küç.88;
E-mail: childlibbaku@yahoo.com

# 2015-ci il Qax şəhəri
# “Azərbaycanın Milli Mətbəx Paytaxtı seçildi.”

Azərbaycan xalqının qədim və rəngarəng qeyri-maddi mədəni irsi minilliklər boyu millətin mentalitetini və şüurunu formalaşdıran əsas mənbələrdən biri olmaqla xalq yaradıcılığının nailiyyətlərini özündə ehtiva edən unikal bəşəri fenomendir. Dünyanın qabaqcıl ölkələrinin mədəniyyət siyasəti sahəsindəki təcrübələri nəzərə alınmaqla, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Azərbaycanın qeyri-maddi mədəni irsinin (diyarşünaslıq, folklor, sənətkarlıq) qorunması və dəstəklənməsi istiqamətində aparılan islahatlara start verilib.

Göstərilənlərdən əlavə, Azərbaycanın qeyri-maddi mədəni irsinin təbliği və təşviqi məqsədilə nazirlik tərəfindən həyata keçirilən "2010-2014-cü illər üçün Xalq Yaradıcılığı Paytaxtları" Proqramının bölgələrə verdiyi müsbət töhfələri nəzərə alaraq görülən işlərin yeni formada davam etdirilməsi məqsədilə yeni "Xalq Yaradıcılığı Paytaxtları" Proqramı təsdiq olunub. Yeni Proqramla əlaqədar 2015-ci il üçün Şamaxı şəhəri "Azərbaycanın Ədəbiyyat Paytaxtı" və Qax şəhəri "Azərbaycanın Milli Mətbəx Paytaxtı" elan edilib.

Bu münasibətlə 4 mart, saat 12:00-da Bakı şəhərində yerləşən Azərbaycan Xalça Muzeyində 2015-ci il üçün Azərbaycanın Xalq Yaradıcılığı Paytaxtlarının Təqdimat mərasimi keçirilmişdir.

Məsələ ilə əlaqədar Şamaxı və Qax rayonlarında il ərzində nominasiyalara uyğun olaraq təntənəli mərasimlərin, respublika və beynəlxalq səviyyəli elmi-praktiki konfrans, dəyirmi masa, konsert, müsabiqə, festival, sərgi, yarmarka, infotur və s. tədbirlərin təşkili nəzərdə tutulub.

# GİRİŞ

“Mən əminəm ki, gələcəkdə Qax Azərbaycanın ən qabaqcıl rayonlarından birinə çevriləcək”

***

"...Qaxın çox gözəl təbiəti, gözəl iqlimi vardır. Əlbəttə ki, bunlar turizmin inkişafı üçün böyük potensialdır. Bütün bu şimal-qərb zonasının turizm imkanları çox genişdir. Əminəm ki, gələcək- də bu istiqamətdə daha d böyük işlər görüləcəkdir".

***İlham Əliyev***
Azərbaycan Respublikasının Prezidenti

“Azərbaycanda məskunlaşan bu xalqlara sözün əsl mənasında tarixi abidə gözü ilə baxmaq və onların yaşadığı arealı tarixi-linqvistik qoruq elan etmək lazımdır”

***Qəmərşah Cavadov***
Tarix elmləri doktoru

“Dörd yanıma baxa-baxa, qalxdım Qaxa, dedim-ölmərəm daha”

***xalq deyimi***

Qax şəhəri Kürmük çayının sahilində, dəniz səviyyəsindən 500 mert yüksəklikdə yerləşir. Gürcüstanla həmsərhəddir. Sərhəd boyunca Kürmük, Qaşqaçayı və Əliçay çayları axır. Ərazisi nisbətən kiçik olan bu rayonda düz 4 iqlim zonası vardır. Dağlardakı göllər və şəlalələr bu yerlərin bəzəyidir. Qax rayonu ərazisində bir sıra tarixi abidələr, qala xarabalıqları vardır. Arxeoloji qazıntılar nəticəsində tunc dövrünə aid kurqanlar aşkar edilmişdir. Qax rayonunun ən böyük möcüzələri alban xristian məbədləridir. “Yeddi kilsə” adı ilə məşhur olan möhtəşəm məbədlər kompleksi uzun müddət alban kilsəsi yeriskopluğunun

iqamətgahı olmuşdur. Məhz bununla əlaqədar olaraq bu ərazi qədim dövrlərdən “Kax”, yəni dini mərkəz, ”Din sarayı” adlandırılmışdır. Kompleksdə eramızın əvvəllərinə aid 9 xristian məbədinin qalıqları vardır.

Qax rayonu ərazisində gözəl müsəlman abidələri (Qax məscidi, Ulu məscid), habelə qədim Torpaqqala istehkamı və İlisunun lap yaxınlığında Ulu körpü də mövcuddur. Şəhərin yaxınlığında, xüsusilə İlisu kəndi istiqamətində gözəl istirahət zonaları yerləşir. İlisu kəndinin ətrafındakı termal mineral kükürdlü su bulaqları müalicəvi əhəmiyyətə malikdir. Qax rayonu turistlərin sevimli məkanıdır.

Regionun milli etnik tərkibi çox zəngindir. Burada Azərbaycan türkləri ilə yanaşı, avarlar, saxurlar, ingiloylar, gürcülər, udilər, yəhudilər, ləzgilər yaşayır.

Çox maraqlı faktdır ki, milli etniklərin kompakt yaşadığı bu ərazidə qədim türk adət-ənənələrini milli azlıqlar da öz folklor nümunələrində qoruyub saxlamışlar.

Müxtəlif bölgələrdən, o, cümlədən Şəki-Zaqatala regionundan toplanmış örnəklər Azərbaycan folklorunun tərkib hissəsi olmaqla yanaşı, ümumtürk və ümumdünya folklorunun da tərkib hissəsidir. Başqa sözlə, örnəklər bir zərrə, bir damla qədər də olsa, həm ümumazərbaycan, həm ümumtürk, həm də ümumdünya folklor xəzinəsinə öz tövhəsini verir. Ona görə də regionlardan toplanmış bu örnəklərin antologiyaların səhifələrində yer almasına, geniş oxucu kütləsinin nəzərinə çatdırılmasına, tədqiqatçıların araşdırma obyektinə çevrilməsinə ehtiyac duyulmaqdadır.

“Əsrarəngiz təbiəti, qədim tarixi abidələri ilə məşhur olan Qax, həm də zəngin mətbəxi ilə seçilir. Tolerantlığın qorunub saxlandığı bu diyarda bir çox millətlərin nümayəndələri yaşayır. Bu millətlərin hər birinin özünəməxsus adət-ənənələri və milli mətbəxi vardır. Bundan əlavə, rayonda müxtəlif səviyyəli tədbirlərin, festivalların keçirilməsi üçün çox yaxşı infrastruktur mövcuddur. Rayon ərazisində müasir tələblərə cavab verən turizm obyektləri, istirahət mərkəzləri fəaliyyət göstərir. Şübhəsiz ki, bütün bu amillər Qaxın

“Paytaxt şəhər” elan edilməsində əsas rol oynayıb”. Son illər dünyada mətbəx mədəniyyətinə xüsusi diqqət yetirildiyini ,mənfur qonşularımızın mətbəx nümunələrimizə, milli xörəklərimizə sahib çıxmaq cəhdlərinin qarşısını almaq üçün bu istiqamətdə daha fəal olmağın, qabaqlayıcı tədbirlər görmək çox vacibliyini “Paytaxt ili” çərçivəsində rayonda keçirilən silsilə tədbirlərdən bəhs edən şöbə müdiri bildirib ki, rəngarəngliyi ilə seçilən bu tədbirlər rayonun bütün yaşayış məntəqələrini əhatə edib. Məsələn, Qum kəndində keçirilən “Tut festivalı” nda yalnız tutdan hazırlanan mətbəx nümunələri təqdim olunub. Tədbir iştirakçıları əvvəlcə tut ağacından giləmeyvənin yığılmasında iştirak edib, daha sonra tutdan müxtəlif təamların – bəhməz, irçal, mürəbbə, halva, xəşil, plov və şirniyyatların hazırlanması prosesi ilə əyani şəkildə tanış olublar. Ən dadlı mətbəx nümunələrini hazırlayanlar diplom və hədiyyələrlə mükafatlandırılıb.

# “Tut festivalı”









İlisu kəndində təşkil olunan “İlisu yeməkləri” adlı tədbir də maraqlı və yaddaqalan olub. Yay fəslində keçirilən bu tədbirdə istirahət üçün kəndə gələn turistlər də iştirak edib, İlisu mətbəxinə aid yeməklərdən dadıblar. Qax mətbəxinin özünəməxsusluğu və zənginliyindən söhbət açan şöbə müdiri deyib: “Rayon əhalisi xəmir xörəklərini və plovu çox xoşlayır. Qurudularaq qaxac edilən ətdən sürhüllü, əriştə, xingilli kimi xəmir xörəklərinin, həmçinin qozlu plovun bişirilməsi dağ kəndləri üçün xarakterikdir. Eyni zamanda, toyuqlu, lobyalı, qatıqlı xəngəl, qiyməli, göyərtili, çürümtəkli girs, həmçinin lobyalı, şabalıdlı, balqabaqlı, tutlu plov əhalinin ən sevimli yeməklərindən hesab olunur”.

# “İlisu yeməkləri”











Nəzir Omarovun bildirdiyinə görə, bu tədbirlərin içərisində sentyabrda təşkil olunan "Ulu dad" milli mətbəx festivalı kütləviliyi ilə fərqlənib. Mədəniyyət və Turizm Nazirliyinin və rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən festivalda yerli kulinarlarla yanaşı, Balakən, Zaqatala, Şəki, Oğuz, Qəbələ və İsmayıllı rayonlarının təmsilçiləri də iştirak edib. Qax şəhərindəki "İçəribazar" Turizm Mədəniyyət Mərkəzinin ərazisində təşkil edilən sərgilərdə kulinarların əvvəlcədən hazırladıqları milli mətbəx nümunələri təqdim olunub. Festivalda iştirak edən Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri Fikrət Babayev və Azərbaycan Milli Kulinariya Mərkəzinin direktoru Tahir Əmiraslanov belə festivalların yerlərdə turizmin inkişaf etdirilməsi üçün yaxşı bir fürsət olduğunu bildirib, "Ulu dad" milli mətbəx brendinin Qaxa çox yaraşdığını, bu şəhərin "Azərbaycanın Milli Mətbəx Paytaxtı" adını layiqincə doğrultduğunu xüsusi vurğulayıblar.

## Tarixi, mədəniyyəti, abidələri, coğrafiyası, iqlimi, əhalıisi haqqında

Qax rayonu Azərbaycanın ən qədim, zəngin tarixi keçmişə malik bölgələrindən biri olmaqla əhalisi Azərbaycanda oturaq əkinçilik, maldarlıq və sənətkarlıqla məşğul olan ibtidai tayfaların sıx məskunlaşdığı əsas mədəniyyət mərkəzlərindən biri olmuşdur. Arxeoloji axtarışlar nəticəsində regionda neolit, tunc, ilk dəmir dövrünə aid çoxlu yaşayış yerləri və kurqanlar qeydə alınmışdır.

Tarixi mənbələrdən məlumdur ki, hələ e.ə. VII əsrin əvvəllərində Qaxın ərazisi Skif çarlığının tərkibinə daxil olmuşdur. Skif çarlığının, onun əsasını qoyan tayfaların - skif, sak tayfalarının izlərinə yaşadığımız Qax rayonunun ərazisində rast gəlinir.

Eramızın əvvəllərində Qafqaz Albaniyasının ərazisində xristianlığın yayılması prosesi başlamışdır. Bu dövrdə Qax rayonunun əhatə etdiyi ərazilərdə bir sıra xristian məbədləri inşa edilmişdir. Ərəb işğalı ilə tənəzzülə uğramış Alban dövlətinin, eləcə də Qax rayonunun indiki ərazisində XI əsrdən başlayaraq

oğuz-səlcuq türkləri, sonra isə qıpçaq türkləri məskunlaşmağa başlamışlar. Həmin dövrdə Qaxın ərazisi o zaman mövcud olan Atabəylər və Şirvanşahlar dövlətinin tərkibinə daxil idi.

XIII əsrdə Qaxın ərazisi Hülakülər dövlətinin tərkibinə daxil olduqdan sonra onun cənub torpaqlarına türk-monqol tayfalarının köçü başlamışdır. 1562-ci ildə Səfəvi hökmdarı Şah I Təhmasibin fərmanı ilə İlisu sultanlığının əsası qoyulmuşdur.

XVIII əsrin ortalarında İlisu sultanlığının nüfuzu o qədər yüksəlmişdir ki, Osmanlı imperiyası İlisu sultanı Əli Sultan bəyə o dövr üçün yüksək rütbə sayılan "İki Sancaqlı" paşa titulu verərək onu Şəki bəylərbəyi kimi tanımışdır.

1803-cü ildə İlisu sultanlığı Rusiya imperiyası tərəfindən işğal edilmişdir. Sultanlığın hakimi Daniyal sultan 1844-cü ildə rus hakim dairələri ilə əmələ gələn narazılıqdan sonra üsyan edərək sultanlığın əhalisini ruslara qarşı qaldırmışdır. İlisu kəndi yaxınlığında məğlubiyyətə uğrayan Daniyal sultan dağlıların milli-azadlıq hərəkatının rəhbəri Şeyx Şamilin tərəfinə keçərək mübarizəni davam etdirmişdir. Ruslar sultanlığın mərkəzi olan İlisu kəndini yandırdıqdan sonra sultanlığın ərazisi mahallara bölünmüş və Car-Balakən dairəsinə tabe edilmiş, çar Rusiyanın müstəmləkəsi olmuşdur.

1918-ci ildə şərqdə ilk dəfə müsəlman ölkələri arasında müstəqil Azərbaycan Demokratik Respublikası yaranmışdır. 1920-ci ildə bolşevik Rusiyanın təcavüzü nəticəsində Azərbaycan Demokratik Respublikası çevrilmiş və Azərbaycan SSR-i yaradılmışdır.

1930-cu ildən etibarən Azərbaycan Respublikasının şimal-qərbində 1494 kvadrat km ərazidə Qax rayonu təşkil edilmişdir. Qax - bu ad haqqında bir neçə fikirlər söylənmişdir. Söylənən fikirlərin ən başlıcası odur ki, “qaq” tayfası bu ərazinin ən qədim tayfalarından biri olmuşdur. Sonralar bu söz “qax” kimi işlənərək bu günümüzə qədər gəlib çatmışdır. Bu ad barəsində elmdə müxtəlif mülahizələr söylənsə də, bir həqiqət bizə məlumdur ki, hələ 3000 il bundan əvvəl, bu ərazidə yaşamış ən iri tayfalardan biri elə qax adlı tayfa idi. Həmin tayfanın bir qolu olan “er” qəbiləsi

(“er”, “ər”, yəni cəsur , igid çox olduğundan qəbilədə onlar belə adlanırdı) hələ 2700 il bundan əvvəl xatırlanmışdı. Çox güman ki, qaxlar həmin ərazidə qədim dövrlərdən mövcud olmuşlar və böyük bir ərazidə yaşayırdılar. Qax adı V əsr hadisələri ilə əlaqədar gürcü mənbələrində xatırlanır. VIII əsrə aid gürcü mənbələrində Qaxin indiki ərazisi Qax-Ubani, yəni Qax obası adlanırdı. Qax adına başqa xalqların toponimiyasında da rast gəlinir: Dağıstanın Qunib dairəsində Qax kəndi, Avar dairəsində Qax kəndi, Buynaksk dairəsində Qaxısaray xarabalığı, Qaxmataş dağı, Kürə dairəsində Qaxtsuq kəndi, Qars vilayətinin Ərdəhan dairəsində Qaxıcvari dağı və s. Faktlar göstərir ki, qaxlar Balakən-Şəki zonasında qədim alban tayfalarından biri olmuşdur. Güman ki, qaxlar III-IV əsrlərdə xristianlığı, VIII-IX əsrlərdə isə islam dinini qəbul etmişlər. Tədqiqatçı alim Nəbi Nəbiyev göstərirki, Qax rayonu çoxlu bağlarla məşhur olduğundan, burada meyvə qurutmaq keçmişdən bəri yerli əhalinin məşğuliyyəti olduğundan bu ad meydana çıxmışdır. Azərbaycan EA Milli Münasibətlər İnstitutunun elmi işçisi, filologiya elmləri namizədi Rəşid Təhməz oğlu isə Qax sözünün iki kökdən ibarət olduğunu qeyd edir. Yəni “qa” – yaşayış yeri, “ax” – çay yeri, çay məskəni kimi ifadə etməklə ilkin adının “Qaax” olmasını mümkün hesab edir. İ. Lineviç “Keçmiş İlusu sultanlığı” adlı əsərində İlusu sultanlığının Qax kəndinin qədim adının Torağay adlandırılmasını qeyd etmişdir. Qıpçaq-latın lüğətində “Torağay” sözü çökəklik, Mahmud Kaşğarlının “Divani Lüğəti İttürk” əsərində “Torağay”, “Toruq” kimi verilmişdir və dağlarla əhatə olunmuş gizlin yer və yaxud dağlar arasında gizlənmək üçün yer kimi açıqlanmışdır. Həqiqətən də Qax rayonu üç tərəfdən dağlarla əhatə olunmuşdur və Qaxın Qıpçaq kəndinin mövcudluğu bu əarazidə V əsrdən burada qıpçaq türk tayfalarının məskunlaşdığını sübut edir.

Yerli feodal, İlisu sultanı Adı Görklü bəy XVI əsrdə Qax qalasını tikdirmişdir. Bu gün Qax şəhəri yerli əhali tərəfindən “İçəribazar” adlandırılan “Qax qalasının“ yerləşdiyi ərazi

daxilindən və həmçinin XVIII əsrə (hicri-1202) aid “Qaxmuğal” məscidinin əhatəsindən genişlənərək müasir görkəmini almışdır.

İçəri bazar XIX əsrin sonları XX əsrin əvvəllərindən yaşayış yeri, mədəni əyləncələr yeri, xalq yaradıcılığının və milli bayramların keçirilməsi yeri kimi də öz funksiyasını davam etdirmişdir.

Qaxın turizm obyektləri, görməli yerləri çoxdur. Bunlardan ən maraqlılarından biri də İçəri bazardır. Bəli, bu günki İçəri bazar tarixi abidə kimi Azərbaycanın ən cəlbedici və maraqlı turizm mərkəzlərindən biri sayıla bilər. “İçəribazar qala kompleksini”-səyahət edərək keçmiş yüzilliklərin memarlığını yeni ideya və məzmunda duymaq, müasir reallığı hiss etmək mümkündür. Hal-hazırda İçəribazar özünün ikinci çiçəklənmə dövrünü yaşayır. Şimal və cənub istiqamətindəki qapılar bərpa olunmuş, turistlərə xidmət göstərəcək dükanlar tikilmiş, bazar meydanında isə yaşıl teatr fəaliyyət göstərir.

Rayonda bir neçə yaşayış məskənləri və kurqanlar (Eneolit-Dəmir, Tunc dövrlərinə aid) aşkar edilmişdir. İlisu Tarixi-Mədəniyyət qoruğunda V-VI əsrlərə aid Alban məbədi, XVII əsrə aid Came məscidi qorunur. Rayonda IX-XIV əsrlərə aid "Cinli" qala; XII-XIII əsrlərə aid Məbəd kompleksi; XV-XVI əsrlərə aid "Pəri qalası"; XVI əsrə aid Məbəd, Qala qapısı və divarları; XVI-XVII əsrlər Hacı Tapdıq məscidi; XVIII əsrə aid məscid vardır.

Qax rayonu ərazisində gözəl müsəlman abidələri (Qax məscidi, Ulu məscid), habelə qədim Torpaqqala istehkamı və İlisunun lap yaxınlığında Ulu körpü də mövcuddur. Ulu körpü İlisu sultanı Daniyal bəyin göstərişi ilə tikilmiş, rus qoşunlarının İlisuya hücumu zamanı Daniyal bəy öz silahdaşlarına bu gözəl körpünü partlatmağa izn verməmişdir. Rus qoşunları İlisu qalasını dağıtmış, yalnız Sumuqqala qülləsini hərbi məqsədlər üçün saxlamışlar. Tirməçi kəndinin yaxınlığında, Şeyx Şamilin naibi Hacı Muradın məzarı vardır. Başdaşının üzərində ərəbcə bu sözlər yazılmışdır:” Burada böyük cəfakeş, milliyətcə avar olan Xunzaxlı Hacı Murad dəfn edilmişdir”.

Qax rayonu Baş Qafqaz silsiləsinin cənub yamacında (Ahvay d., 3481 m, Qaraqaya d., 3465 m.), Qanıx-Əyriçay vadisində və Acınohur alçaq dağlığında yerləşir. Acınohur alçaq dağlığında Daşüz, Xocaşen silsilələri və Acınohur düzü ayrılır. Rayonda Yura, Təbaşir, Neogen və Antropogen yaşlı çöküntülər səthə çıxır. Kvars, inşaat materialları mühüm təbii sərvətlərdir. Acınohurda yarımsəhra və quru çöl iqlimi, Qanıx-Əyriçay vadisində qışı quraq keçən mülayim-isti iqlim, dağların yamaclarında yağıntıları bərabər paylanan mülayim-isti, bütün fəsllərdə bol yağıntısı olan soyuq iqlim, yuxarıda dağ-tundra iqlim tipləri yaranır. Yanvar ayının orta temperaturu 2°C-dən -10°C-yə qədər, iyulda alçaq ərazilərdə 25°C, dağlarda 10°C qeydə alınır. Yağıntıların orta illik miqdarı 500-1600 mm arasında dəyişir. Baş Qafqazın cənub yamaclarından axan Kürmük, Şəki rayonundan gələn Əyriçay Qanıx çayına tökülür

1872-ci ildə dərc olunmuş və 1869-cu il əhalinin kameral siyahıya alınması nəticələrini əks etdirən Tiflis quberniyasının və Zaqatala dairəsinin hərbi icmalına əsasən Zaqatala dairəsinin İlisu naibliyinə daxil olan Qax kəndində milli tərkibi muğallardan və ingiloylardan ibarət 160 ailə yaşayırdı. Müvafiq icmalda dairəni təşkil edən yaşayış məntəqələrinin əhalisinin milli tərkibinə dair məlumatlarda etnik türklər muğallar, Dağıstanlı xalqların nümayəndələri isə ümumi adla ləzgilər olaraq göstərilmişdirlər.

1 yanvar 2012-ci il tarixinə olan rəsmi məlumata əsasən şəhərdə 3.490 təsərrüfatda hər iki cinsdən toplam 13.793 nəfər əhali yaşamaqdadır.

Rayon Mədəniyyət və Turizm şöbəsi 1949-cu ildə Mədəniyyət şöbəsi kimi təşkil edilmişdir. İlk şöbə müdiri Hacıyev Abdurahman müəllim olmuşdur. 2006-cı ildə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 30.01.2006-cı il tarixli fərmanı ilə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin əsasında Mədəniyyət və Turizm Nazirliyi yaradılmışdır. Hal-hazırda rayon Mədəniyyət və Turizm şöbəsinin şəbəkəsində 96 müəssisə və 1 abidə mühafizəçiləri qrupu fəaliyyət göstərir. 49 kitabxana, 23

mədəniyyət evi, 17 klub, Heydər Əliyev Mərkəzi, 2 muzey (Tarix Diyarşünaslıq muzeyi, İ.Dağıstanlı xatirə muzeyi), İlisu Tarix Mədəniyyət Qoruğu, Rəsm Qalereyası və İncəsənət məktəbində ümumilikdə 506 nəfər işçi çalışır.

Hazırda rayonda 2 mehmanxana, "Şəfa" istirahət və müalicə pansionatı, İlisu pansionatı, "Yaşıl park", "Ulu", "İmproteks", "Ulu dağ" turizm və istirahət mərkəzləri və "Eden" Park hotel, "Səngər qala" istirahət mərkəzi, "El Resort" beş ulduzlu otel turistlərə xidmət işini həyata keçirir. Turizm mərkəzlərində qiymətlər 25- 30-55 manat aralarında dəyişir. Turizm obyektlərində yerlərin sayı 600-ə çatdırılmışdır. 2011- ci ildə 15 minə yaxın turist istirahət etmisdirsə, 2012-ci ildə bu rəqəm 20 minə yaxın olmuşdur.

# Ədəbiyyat

## Kitab


### 2000

**1.Qədim azəri yurdu-Qax**: [Kitabda Qax rayonunun qədim tarixindən, nadir təbiətindən, gözəl və mərd insanlarından, şeriyyətindən, folklorundan, adət-ənənələrindən bəhs olunur.] /Natiq Abbasov; Red.: Ş. Nuruzadə .- Bakı: Ağrıdağ, 2000.-172 səh.

### 2001

**2.Azərbaycan SSR Şəki-Zaqatala zonasının toponimiyası** /E.Nuriyev.- Bakı: Elm, 2001.- S. 34, 37, 39-40.

### 2004

**3.Şəki - Zaqatala bölgəsində yaşayan milli azlıqların** (ləzgi, avar, ingiloy, ərəşdi və s. **) toy adətlərində spesifik cəhətlər**" "Ortaq Türk Keçmişindən Ortaq Türk Gələcəyinə" Folklor Konfransının materialları.- Bakı: 2004.- S. 254-255.

### 2005

**4.Azərbaycan folkloru antologiyası**: [Bu cilddə Azərbaycanın folklor materialları ilə zəngin olan Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala, Balakən bölgələrinin folklor inciləri toplanmışdır] /AMEA, Folklor İn-tu; tərt. ed. İ. Abbaslı, O. Əliyev, M.Abdullayeva ; elmi red. H.İsmayılov; nəşrinə məsul Ə.Ələkbərli.- Bakı: Səda, 2005.- C.XIII.- 549, [1] s.

**5.Qax: folklor-etnoqrafik etüdlər** /Ə.Y.Ələkbərli; Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu; Red.: H. İsmayılov.- Bakı: Ağrıdağ, 2005.- 224 s.

### 2008

**6.Azərbaycan Respublikasının regional coğrafi problemləri:** Qax rayonu /Baş red. və ön söz: B. Ə. Budaqov;

Məsul red.: Ə. V. Məmmədov; AMEA, akad. H. Ə. Əliyev adına Coğrafiya İnstitutu; Şəki Regional Elm Mərkəzi.- Bakı: İsmayıl NPM, 2008.-80 s.

**7.İlisu dövlət qoruğu** /T.O.İbrahimov; elmi red. Ş. Göyçaylı.- Bakı: Müəllim, 2008.- 74, [1] s.

## 2009

**8.Şərqin qapısında möcüzələr** / E. İbrahimov.- Bakı: "Letterpresa" Nəşriyyat Evi , 2009.- 60 s. ( şəkilli ).

## 2011

**9.Bu dağlar, ulu dağlar:** [Yazıçı-jurnalist Ə.İsayevin yeni kitabında Oğuz-Türk yurdu Zaqatala-Qax bölgəsinin tarixindən, bu yerlərin yetirdiyi görkəmli şəxsiyyətlərin, eləcə də İlisu sultanı Danyal bəyin həyat yolundan, Suvagil, Sarıbaş, Ləkit, Qum və İlisu kimi səfalı yurd yerlərinin məişətindən, adət-ənənə- lərindən, bu gününün durumundan danışılır]: axtarışlar və publisistik qeydlər /Ə.M. İsayev; red. R. Sadıqova. Bakı: Şur, 2011.- 310, [2] s.

## 2012

**10.İlisu: ensiklopedik məlumat kitabı** /tərt. S.N. Murtuzayev; red. hey. S. Murtuzayev [və b.]; red. H. M. Fərzullayev.- Bakı: Vətən, 2012.- 416 s.

## 2013

**11.Qax, 2003-2013: hədəflər, inkişaf, nəticələr** [İzomaterial]: [fotoalbom] /Azərb. Resp. İqtisadi İnkişaf Nazirliyi Bakı: 2013.- 115, [2] s.

## Dövrü mətbuat

### 2002

**12.Əzəldən qardaşdır əllərimiz Azərbaycan-Gürcüstan dostluğu** /X.Məmmədov //Azərbaycan.- 2002.- 5 yanvar.- S.2.

### 2006

**13.Qaxın Qum kəndindəki alban məbədinin konservasiyası başa** çatmışdır //Azərbaycan.- 2006. - 28 noyabr. - S.5.

### 2008

**14.Qax həm də turizm məkanıdır** /T.Nəzərli //Azərbaycan.- 2008.- 23 noyabr.- S. 5

**15.Qax- təbiət də, cəmiyyət də öz qızıl günlərini yaşayır.** "İlham Əliyev mən əminəm ki ‚gələcəkdə Qax Azərbaycanın ən qabaqcıl rayonlarından birinə çevriləcək" /İ.Həsənov //Xalq qəzeti.- 2008.- 8 noyabr. - S.5.

**16.Qaxın turizm perspektivləri** /T.Nəzərli //Azərbaycan.- 2008.- 18 iyul.- S. 6.

**17.Qaxlılar regionların sosial- iqtisadi inkişafı Dövlət Proqramının yerinə yetirilməsinə əməli işləri ilə cavab verirlər** //Azərbaycan.- 2008.- 23 fevral.- S.5

**18.Mədəniyyətimiz mənəvi xəzinəmizdir** /N.Omarov // Respubli- ka.- **2008**.- 29 iyun.- S.4.

**19.Sürətli inkişaf Azərbaycanı zəngin, qüdrətli və müasir dövlətə çevirəcəkdir:** Azərbaycan Prezidenti İlham Əliyevin Şəki - Zaqatala bölgəsinə səfəri: Qax rayonu //Azərbaycan.- 2008.- 21 sentyabr.- S.1.

**20.Şərqin hikmət kitabı** /A.Əfəndiyeva //Yeni Mədəni-maarif.- № 1-2.- **2008**.- S.36.

**21.Turizm Onun inkişafı üçün Qaxda əlverişli şərait var** /N.**Omarov** //Yeni Mədəni-maarif.- № 7.- 2008.- S.14-17.

## 2009

**22.Ənənəvi tədbir Balakən və Qaxda Mədəniyyət obyektlərinə baxış davam edir** /İ.Hacılı //Mədəniyyət.- 2009.- 29 iyul.- S. 4.

**23.Gənclər bugünün və sabahın fəal qurucularıdır:** Qaxın **sosial**, iqtisadi və quruculuq həyatında bu aydın görünür /Ə.Bayramov //Respublika.- 2009.- 22 noyabr.- S. 6.

**24.Qax rayonu hərtərəfli inkişaf edir** /T. Nəzərli //Azərbaycan.- 2009.- 9 iyun.- S. 4.

**25.Qax: tərəqqi adlı bir əsər yaranır** /İ. Həsənov //Xalq qəzeti.- 2009**.-** 25 fevral.- S.6.

**26.Qax-Azərbaycan tarixinin bir səhifəsi** /A. Sultanova //Mövqe .-2009.- 10-12 oktyabr.- S. 4.

**27.Qaxda yüksəliş üçün etibarlı bünövrə yaradılır:** 2009-cu ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunları /N.Nəsirov //Respublika.- 2009.- 31 iyul.- S.3.

**28. Turizm perspektivləri** /T.Nəzərli //Yeni Mədəni-maarif jurnalı.- 2009.- №4.- S.56-57.

## 2010

**29.Qaxda Teatr Festivalı** /N.Şabanov //Ədalət.- 2010.- 22 iyun.- S. 4.

**30.Qaxda turizmin inkişafı üçün real imkanlar vardır** //İki sahil.- 2010.- 31 iyul.- S.15.

**31.Qaxın gözəl günləri** /İ. Həsənov //Xalq qəzeti.- 2010.- 28 avqust.- S. 4.

**32.Regionlarda kənd turizmi inkişaf edir:** Qax rayonunda yaradılan turizm infrastrukturu buna bariz nümunədir //Mədəniyyət.- 2010.- 4 avqust.- S. 9.

**33.Tarixi və təbii gözəlliyini qoruyub saxlayan Balakən,** Zaqatala **və Qax rayonlarında müasir turizm infrastrukturu yaradılıb** /R.Vəlibəyov //Yeni Azərbaycan.- 2010.- 21 avqust.- S.8.

## 2011

**34. Babaların hikmət xəzinəsi:** milli azlıqların folkloru: Şəki-Balakən bölgəsi /Ə.A. Süleymanov; red. M.Qasımlı, Z.Əlizadə; AMEA, Şəki Regional Elmi Mərkəzi.- Bakı: Apostroff, 2011.-254, [2] s.

**35. Gözəlliklər məskəni İlisu:** Şəfalı təbiət möcüzəsinin tarixi //Azadlıq.- 2011.- 5 mart.- S. 13.

**36. Kürmük məbədində Müqəddəs Georgi Günü:** [Xristianlar və müsəlmanlar bayram ovqatını birgə yaşadılar] /E.Eldəniz //Ayna.- 2011.- 14 may.- S.6.

**37. Prezident İlham Əliyev Qaxda «İçəribazar» qala kompleksində tikinti və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olmuşdur** //Azərbaycan.- 2011.- 18 noyabr.- S. 3, 4.

**38. Şəhər içində şəhər: İçəribazar /**M.Əhmədoğlu //Ədalət.- 2011.- 3 iyun.- S. 7.

## 2012

**39.** “**İçəribazar” qala kompleksi yolunuzu gözləyir** /M.Məhərrəmov //Azərbaycan.- 2012.- 11 mart.- S. 7.

**40. Qaxın teatr dünyası** /N.Mahmudov; Müsahibəni apardı: Nizamiqızı, Həmidə //Mədəniyyət.- 2012.- 13 iyul.- S. 7.

**41. Minillik tarixin mədəni irsi - Azərbaycanda alban abidələri** /Mehparə //Mədəniyyət.- 2012.- 25 iyul.- S. 12.

## 2013

**42. Balakəndə ümummilli liderin abidəsini ziyarət:** [Azərbaycan Prezidenti İlham Əliyevin Qax, Balakən və Zaqatala rayonlarına səfəri] //Azərbaycan.- 2013.- 18 avqust.- S. 4.

**43. Balakənin Katex kəndində soyuducu anbar kompleksi fəaliyyətə başlamışdır:** [Azərbaycan Prezidenti İlham Əliyevin Qax, Balakən və Zaqatala rayonlarına səfəri] //Azərbaycan.- 2013.- 18 avqust.- S. 5.

**44.Etnik baxımdan zəngin bölgələrimiz - Qax** /S.Mürvətqızı //525-ci qəzet .-2013.- 8 avqust.- S. 22.

**45.“Xalçaçılıq üzrə zona sərgisi bölgələrdə ilk olaraq Qaxda keçirilir”** /N.Omarov; Müsahibəni apardı: A.Miriyev //Palitra.- 2013.- 14 iyun.- S.11.

**46.İnkişafın və müasirləşmənin Qax nümunəsi** /M.Əhmədoğlu //Ədalət.- 2013.- 2 iyul.- S. 3.

**47.Qax: dünyanın bütün rənglərini yaşadan diyar** /İ.Həsənov //Xalq qəzeti.- 2013.- 23 avqust.- S. 7

**48.Qaxda «El Resort» otelinin Konfrans Mərkəzi fəaliyyətə başlamışdır:** [Azərbaycan Prezidenti İlham Əliyevin Qax, Balakən və Zaqatala rayonlarına səfəri] //Azərbaycan.- 2013.- 18 avqust.- S. 3.

**49.Qaxda Heydər Əliyev Mərkəzi açılmışdır:** [Azərbaycan Prezidenti İlham Əliyevin Qax, Balakən və Zaqatala rayonlarına səfəri] //Azərbaycan.- 2013.- 18 avqust.- S. 3.

**50.Qaxda Olimpiya İdman Kompleksi istifadəyə verilmişdir: [**Azərbaycan Prezidenti İlham Əliyevin Qax, Balakən və Zaqatala rayonlarına səfəri] //Azərbaycan.- 2013.- 18 avqust.- S. 1-2.

**51.Mədəni tədbirlərin müasirləşməsi və turizimin canlanması inkişafımızın yeni mərhələsidir** /M.Əhmədoğlu //Ədalət .-2013.- 25 sentyabr.- S.3.

**52.Şimal - Qərb bölgəsində turizmin Qax nümunəsi** /N. Şabanov //Ədalət.- 2013.- 10 yanvar.- S. 7.

## 2014

**53.Azərbaycan dünyada tolerant dövlət kimi tanınıb** //Mədəniyyət.- 2014.- 9 may.- S. 12.

**54.Dağlar qoynunda “Səngər qala”** /F.Hüseynov //Mədəniyyət.- 2014.- 6 avqust.- S. 11.

**55.Dinamik inkişaf Qaxın turizm potensialına da təsir edir:** Regionların sosial-iqtisadi inkişafı III Dövlət Proqramı /T.Nəzərli //Azərbaycan.- 2014.- 13 aprel.- S.6.

**56.Əsrarəngiz Turizm Mərkəzi-Qax** //Zaman.- 2014.- 1aprel.- S.7.

**57.Görənləri ovsunlayan Qafqaz incisi** /M. Əhmədoğlu //Ədalət.- 2014.- 9 may.- S.19.

**58.Qax Kukla Teatrının uğuru** /Həmidə //Mədəniyyət.- 2014.- 15 oktyabr.- S. 13.

**59.Qax mətbəxi- ağız dadı** // Zaman, 2014.- 1 aprel.- S.11.

**60.Qax turistlər üçün cəlbedici məkandır:** Regionların sosial-iqtisadi inkişafı /R.Amanov // Respublika.- 2014.- 8 iyun.- S.5.

**61.Qaxın hər bir guşəsi turistlər üçün əsl istirahət məkanıdır** /Cavidan //Palitra.- 2014.- 17 iyul.- S.10.

**62.Prezident İlham Əliyev: "Qaxda aparılan quruculuq-abadlıq işləri rayonu ön plana çəkibdir"** //Zaman.- 2014.- 1aprel.- S.2.

**63.Tarixlərin yaddaşı - Tarix - Diyarşünaslıq muzeyi** //Zaman.-2014.- 1 aprel.- S.6.

**64.Turizmin formalaşmasında tarixi abidələr əvəz olunmazdır** /M.Əhmədoğlu //Ədalət.- 2014.- 16 dekabr.- S.7.

## 2015

**65.2015-ci ilin "Xalq yaradıcılığı paytaxtları": Şamaxı şəhəri Ədəbiyyat paytaxtı", Qax şəhəri "Milli mətbəx paytaxtı" seçilib** //Mədəniyyət.- 2015.- 27 fevral. - S. 2.

**66.2015-ci ilin ədəbiyyat və milli mətbəx paytaxtları təqdim edildi:** "Mədəniyyət paytaxtları anlayışını Azərbaycanda tətbiq etmək məqsədilə həyata keçirdiyimiz proqram müsbət nəticə verib" /F.Abdullayeva //Mədəniyyət.- 2015.- 6 mart. - S. 3.

**67.Bölgələr "paytaxt" olanda.....:** [Qax şəhərinin "Milli mətbəx paytaxtı" və Şamaxının "Ədəbiyyat paytaxtı" elan olunması ilə əlaqədar təntənəli tədbirlər keçirilib] // Mədəniyyət.- 2015.-15 may.- S.8.

**68.Kürmük məbədi tarixi yaddaş abidəsidir** //Mədəniyyət.- 2015.- 3 iyul.- S. 11.

**69.Qax rayonunda kənd yaşıl turizminin imkanları böyükdür: [**Rayona bu məqsədlə səfər edənlərin sayı daha çoxdur] /F.Abdullayeva //Mədəniyyət.- 2015.- 22 iyul.- S.6.

**70.Qax reallıqları: gəlin, görün...** /İ.Həsənov //Xalq qəzeti.- 2015.- 28 avqust.- S.6.

**71.Qax: Qum kənd mədəniyyət-istirahət mərkəzində tut festivalı** /N.Şabanov //Ədalət.- 2015.- 3 iyul.- S.3.

**72.Qax: ucalanan və şöhrətlənən qədim oğuz eli** /M.Əhmədoğlu //Ədalət.- 2015.- 2 may.- S.4.

**73.Qax: Yazılmalı, deyilməli çox söz var...** /İ. Həsənov //Xalq qəzeti.- 2015.- 4 mart.- S.9.

**74.Qaxda "Ənənəvi İslam dəyərləri və müasirlik" mövzusunda regional konfrans işə başlayıb** //Azərbaycan.- 2015.- 30 aprel.- S.11

75.**Qaxda "Ulu dad "milli mətbəx festivalı keçirilib** // Azərbaycan.- 2015.- 23 sentyabr.- S.7.

76.**Qaxda "Ulu dad "milli mətbəx festivalı keçirilib** // Mədəniyyət.- 2015.- 23 sentyabr.- S.9.

77.**Qaxda mədəni irsin mühafizəsinə diqqət artırılır** / Əli Xasayoğlu // Azərbaycan.- 2015.- 16 dekabr.- S.5.

**78.Qədim diyar müasir inkişaf mərhələsində:** Yaxud Azərbaycanın mühüm aqrar-sənaye rayonlarından olan Qax eyni zamanda, regionun cəlbedici turizm mərkəzlərindən biri kimi tanınır /N.Azəri //Yeni Azərbaycan.- 2015.- 3 mart.- S.6.

**79.**"**Milli irs mükafatına" layiq görülmüş Qax rayonu "Milli mətbəx paytaxtı" elan olunmuşdur** /N. Şabanov //Ədalət.-2015.- 24 iyun.- S.7.

**80.**"**Milli mətbəximiz - milli irsimiz:[** "Milli Mətbəx Paytaxtı"nda növbəti tədbir] // Mədəniyyət.- 2015.- 18 dekabr.- S.9.

81.**"Milli mətbəx paytaxt" ında festival:** "Bəsləsən atlas olar tut yarpağından" // Mədəniyyət.- 2015.- 24 iyun.- S.8.

**82."Milli mətbəx paytaxtı" nın yeni günləri** / Əzizova Dilarə // Mədəniyyət.- 2015.- 6 may.- S.12.

**83.“Milli Mətbəx Paytaxtı”nda daha bir tədbir** // Mədəniyyət .- 2015 .- 23 dekabr.- S.6.

**84.Tanıdığımız və tanımadığımız Qax** /F.Hüseynzadə //Palitra.- 2015.- 30 sentyabr.- S.7.

**2016**

**85.İstirahət guşələrində kitabxana xidməti** //Mədəniyyət.- 2016.- 29 iyul.- S. 11.

**86.Qax: inkişafın təntənəsi** /M.Əhmədoğlu//Ədalət.- 2016.- 2 mart. - S.4.

**87.Qax: Yerli turizmin özünə məxsusluğu qonaqları heyran edir** /İ. Həsənov //Xalq qəzeti.- 2016.- 26 avqust.- S.7.

**88.Qaxda milli irsimizin mühafizəsi və təbliği istiqamətində tədbirlər davam edir /N.Şabanov** //Ədalət.- 2016.- 9 yanvar.- S.4.

**89.Qaxın multikultural ənənələri** /Ə.Səlimov //Azərbaycan.- 2016.- 5 mart.- S.6.

**90.Qaxın qonaqlı-qaralı günləri...** /İ. Həsənov//Xalq qəzeti.- 2016.- 3 sentyabr.- S.6.

# Dissertasiya

**2001**

**91.İngiloylar:** (tarixi-etnoqrafik tədqiqat) tarix elmlər namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya.: 07.00.07 ; 07.00.03 /Ş. H. Əliyev ; Azərb. Resp. Təhsil Nazirliyi, BDU.- Bakı: 2001.- 184 s.+: [48] v. şək. albomu

## Rus dili

### 2006

**92.Общественность Гаха высоко оценивает поездку Президента Ильхама Алиева в Северо-западный регион** //Бакинский рабочий.- 2006. - 26 апреля. - С. 2.

### 2009

**93.Слияние вод, сплав народов Илису, Гах, Огуз и другие населенные пункты северного Азербайджана-свидетели старины глубокой и очаги древних традиций** /С.Назирова //Азербайджанские известия.- 2009.- 17 июля.- С.4.

### 2012

**94.Археолог Насиб Мухтаров:** «Азербайджан никогда не был в стороне от цивилизации» /Н.Мухтаров //Бакинский рабочий.- 2012.- 18 октября.- С. 4-6.

**95.Тайна древнего Лекита** /Т.Кязимова//Вышка .-2012. - 7 сентября. - С. 12.

### 2014

**96.Гах: христианские храмы** /Ф.Наджи //Yol.- 2014.- №6 (48).- С.8-20.

## İnternet resursları:

www.azertag.com
www.anl.az
www.clb.az
www . mətbuat.az
www. medya.az
www. sia.az

**Azərbaycanın Milli Mətbəx paytaxtı Qax**
Respublika Uşaq kitabxanaları üçün
tövsiyə biblioqrafiyası

**Komputer yığımı**
**və dizayn:** **Tünzalə Əzizova**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F. Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 25
Çapa imzalanmışdır: 11
Tirajı:100
Pulsuz.